# *FİLOLOGİYA ELMLƏRİ*

## XX əsrin 20-30-cu illər ədəbi tənqidində yaradıcılıq metodu problemi

**Qızqayıt Neymət qızı Süleymanova**
*Bakı Qızlar Universitetinin dosenti,*
*filologiya üzrə fəlsəfə doktoru*
**E-mail:** fidan_abdurahmanova@mail.ru

**Rəyçilər:** filol.ü.e.d., prof. N.Ş. Şəmsizadə,
filol.ü.f.d., dos. İ.M. Məmmədli

**Açar sözlər:** yaradıcılıq, tənqid, ədəbiyyat, problem, proses, əsər, xalq, məktəb, təhlil
**Ключевые слова:** творчество, критика, литература, проблема, процесс, работа, народ, школа, анализ
**Key words:** creativity, criticism, literature, problem, process, work, folk, school, analysis

XX əsrin 20-30-cu illər tənqidi bir epoxa kimi bütün problemləri ilə bərabər ümumsovet ədəbi-tarixi prosesinin tərkib hissəsi idi. Bütün məsələlər mərkəzdə qaldırılır sonra milli respublikalara ötürülürdü. Dövlətin ədəbi siyasətini RAPP (Российская Ассосиация Пролетарских Писателсй) həyata keçirir. 1934-cü ilə SSRİ Yazıçılarının I ümumittifaq qurultayına qədər bu belə davam etdi. Yeni proletar – sovet ədəbiyyatının əksər problemləri bu dövrün (1917-1934) ədəbi mübahisələrində həll olunub. Konkret sovet ədəbiyyatı və onun yaradıcılıq metodu – sosializm realizm və onun nəzəriyyəsi bərqərar oldu. Bu mərhələdə müzakirə olunan problemlər ədəbi tənqidin inkişaf dialektikasını müəyyən edirdi. Bu problemləri aşağıdakı kimi təsnif etmək mümkündür: klassik irsə (ümumən keçmişə:) münasibət; yeni-proletar ədəbiyyatının bədii-estetik mahiyyətinin izahı; sənətkarın fərdi yaradıcılıq mövqeyi ilə onun cəmiyyətdəki aparıcı rolunu təyin edən bədii metod problemi.

Klassik irsə münasibətdə hələ 1917-ci ildə inqilab barrikadaları arasında yaranmış proletkultçu nihilizm – başqa sözlə desək, keçmişdən qalma nə varsa inkar. Azərbaycan tənqidində klassik irsə münasibət kifayət qədər ziddiyyətli idi. Dövrün görkəmli tənqidçisi Əli Nazimin bir fikri bu ziddiyyəti əyaniləşdirir: "Bu gün şeirimizdə ilk sırada böyük Puşkin – Mayakovski şerindən öyrənmək şüarına zidd gedənlər şüurlumu, şüursuzmu, biz Şərq mistik ədəbiyyat güşəsinin meymunlarına çevirməkdən başqa bir iş görmürlər. Lakin eyni zamanda, Puçkin və Mayakovski adı ilə maskalanaraq şerimizə naturalizm korluğu və formalizm şilkütlüyü, eybəcərliyi gətirən şairlərin də bütün səhvləri göstərilməlidir" (1, s. 361).

Bu problemin doğru həlli də yaradıcılıq metodu məsələsinin obyektiv nəzəri-tarixi izahını aktuallaşdırırdı. Ədəbiyyatda "yeniliyi mahiyyətini əks etdirən termini tapmaq 20-ci illərin bütün ədəbi qruplarına daxil olan tənqidçilərin vəzifəsini təşkil edirdi. Tənqid, ədəbiyyatın yeni keyfiyyətini gah "proletar realizm, gah psixoloji realizm" "neorealizm", "monumentdli realizm" və başqa kimi anlayışlarla müəyyənləşdirilirdi. Bir sözlə, metod probleminin özü ilk dəfə 1927-ci ildə RAPP nəzəriyyəçilərinin çıxışlarında qoyulmuşdu. Buna qədər ədəbiyyatşünaslıqda "metod" termini dəqiq mənasını tapmamışdır. O gah "üsul", "vasitə" mənasında, gah da yaradıcılığın əsas xüsusiyyəti mənasında işlədilmişdir" (2, s. 38).

Bu illərdə görkəmli sovet yazıçıları F. Qladkov və Y.Libedniski yeni metodu "proletar

realizm", V.Mayakovski "tendensiyalı realizm" (3, s. 342). A.Tolstoy "tendensiyalı realizm" (4, s. 286) adlandırmağı daha münasib sayır və bu anlayışları təklif edirdilər. Hələ metod anlayışının izahı verilməmiş tənqidçilər onun tərkib hissələrini, ədəbi-nəzəri əhəmiyyətini izah etməyə çalışırdılar. Sürətlə gedən yeni həyat, ədəbi proses durub gözləmirdi. Həyatın inkişafı ilə bağlı bütün məsələlərin dotələb şəkildə, özü də sistemli həllini vermək lazım idi. Xüsusilə metodla bağlı iki məsələnin həlli ön plana çıxmışdı: milli forma və sənətkarın dünyagörüşü!

Ə.Nazim yazırdı: "Milli forma müstəqil bir məsələ olmayıb, yaradıcılıq metodu məsələsinə büsbütün tabedir, yalnız yaradıcılıq metodu məsələsini doğru qoymaqla... milli forma məsələsini doğru həll etmək olar (1, s. 107). Ə.Nazim yazırdı ki, C.Cabbarlı son əsərləri ilə "sosializm realizminə addım atmışdır". Görkəmli sovet ədibi A.Fadeyev Leninqradda keçirilən konfransda çıxış edərkən demişdi: "Bizə obyektiv varlığı maksimum səviyyədə, hərəkətdə və inkişafda dərk etmək mənimsəmək, onu proletariatın mənafelərinə uyğun dəyişməyi bacaran incəsənət lazımdır" (5, s. 84).

Burada K.Marksın "Feyerbax haqqında tezislər"inin bir müddəası ("Filosoflar ancaq dünyanı müxtəlif şəkildə izah etmişlər, mətləb isə onu dəyişməkdən ibarətdir") mexaniki olaraq yeni ədəbiyyata və onun metoduna tətbiq olunurdu. Bu hal Azərbaycan tənqidi üçün də xarakterik idi.

1931-ci ildə, ədəbi mübahisələrin qızğın vaxtı gənc yazıçı və tənqidçi AzAPP-ın məsul katibi M.Hüseyn yazırdı: "Biz proletar sənətkarlarından ən əvvəl dünyagörüşü, düşünmək, həm də sağlam materialist – dialektik beyni ilə düşünmək tələb edirik. Bizim təbliğ etdiyimiz dialektik materializm metodu, hadisələrin proses halında götürülməsini tələb edir" (6, s. 44).

Bədii yaradıcılıq metodu probleminin üzvi tərkib hissəsi sənətkarın dünyagörüşü təsəllisi idi. Hələ XIX əsrdə böyük tənqidçi V.Q.Belinski yazırdı ki, "Hər hansı bir xalqın ədəbiyyatının mənbəyi xarici bir təsir, yaxud kənardan edilən bir təkanda deyil, yalnız həmin xalqın öz dünyagörüşündə ola bilər. Hər bir xalqın dünyagörüşü onun ruhunun rüşeyminin mahiyyəti, bu dünyaya olan həmin daxili baxışdır ki, xalq həmin baxışla doğulur...

Dünyagörüşü ədəbiyyatın mənbəyi və əsasıdır. Dünyagörüş ədəbiyyat üçün elə bir yerlikdir ki, onun bütün naxışları və lövhələri həmin bu yerliyin üzərində cızılır" (7, s. 29). Göründüyü kimi böyük rus tənqidçisi dünyagörüşünü fərdin idrakı fəaliyyətindən daha çox xalq həyatı ilə bağlayır. Bu cəhət 20-30-cu illərdə yeni Ədəbiyyatın yaradıcılıq metodunun təbiətinin izahını asanlaşdırır və aydınlaşdırırdı. Mütəxəssis yazır: "Dünyagörüşlü metodun üzvi tərkib hissəsinə o zaman çevrilir ki, o, bədii əsərdə ictimai-siyasi tendensiya formasında mövcud olmur, sənətkarın istedadı, poetik təfəkkürü ilə qaynayıb qarışır" (8.191).

XX əsrin 20-30-cu illərində, elə indi də metod problemi dünyagörüşü ilə sıx bağlı bir məsələdir. Belinskinin qənaətini əsas kimi qəbul etsək, deməli metod – "idrak aləmi" (K.V.Hegel) də bilavasitə xalq həyatı, xalqın daxili aləminin mahiyyəti ilə əlaqələndirilir. 20-30-cu illərin marksist tənqidi dövrün və rejimin tələbinə uyğun olaraq metodda dünyagörüşünü öz ideologiyaları ilə bağlayırdılar: "Bədii metodun dünyagörüşü ilə sıx əlaqədə götürülməsi marksist–leninçi estetikanın başlıca çıxış nöqtələrindən – marksist sənətşünaslığın metodoloji əsaslarındandır" (9, s. 71).

Əslində metod fəlsəfənin elmi problemidir, həmçinin elmin metodları mövcuddur; məsələn riyazi metod. Fəqət, burada söhbət bədii yaradıcılıq metodundan gedir ki, 20-30-cu illərin qızğın mübahisələr fonunda keçən müzakirələrində də ya "bədii metod", ya da "yaradıcılıq metodu" anlayışları işlədilirdi. Əli Nazim həm də nəzəri məsələlərini marksistcəsinə həllində fəal idi. O Leninqradda müəllimləri Friçe və Pereverzevdən təhsil alarkən estetika sahəsində marksizmi onların müəllimi K.V.Plexanovdan mənimsənilmişdi. Plexanovun menşevizmi

tənqid olunduqdan sonra bir sıra nəzəri məsələləri onun görüşləri əsasında izah etməsi Əli Nazimə qarşı ittihama çevirildi.

1931-ci ilin sonlarında Əli Nazim "Nəzəri cəbhədə bolşevik firqəliyi uğrunda" mövzusunda silsilə məqalələrlə çıxış edir. Əli Nazimin bu məqaləsində Mikayıl Rzaquluzadə, Mehdi Hüseyn və Mustafa Quliyev Mikayıl Rəfili tənqid olunur və ən çox tənqid olunan da Əli Nazim özü idi. Plexanovun şiddətlə tənqid olundu, o düşmən elan olunurdu. Onun Plexanovçuluqda ittiham edən Mehdi Hüseynə cavab verərək Əli Nazim yazırdı: "Mehdi məni Plexanovun mücərrəd, qeyri-tarixi düsturunu anlamamaqda ittiham edir. Halbuki mənim əsas səhvim Plexanov yolu ilə getməm və həmin düsturu qəbul etmək idi" (10) "Plexanov təsir altında olmayan tənqidçimiz olmamışdır". "Plexanovda bir çox müsbət cəhətlərini də olduğunu unutmamalıyıq" (Əli Nazim).

1927-ci ilə qədər Plexanov estetika sahəsində ən görkəmli marksist hesab olunurdu. Tədqiqatçı yazır: "Hər bir ədəbi-ictimai hadisəyə yalnız hakim ideologiya, yalnız sinfi mövqedən izah vermək məhdudluğu 30-cu illər tənqidində bir çox haqsız ittihamlar, zorakı, ədalətsiz etiraflar, habelə nəzəri-estetik və elmi-metodoloji sapıntılar törədir, bu isə özlüyündə ədəbi-bədii inkişafı təbii yolundan döndərir, onu ciddi şəkildə ləngidirdi" (10, s. 258).

Bu obyektiv elmi fikir 30-cu illərdə qızğın mübahisə obyekti olan bədii (yaradıcılıq!) metodu probleminə də aiddir və bu mübahisə həmin problemin tədqiqinə metodoloji stimul yaradır. Görkəmli nəzəriyyəçi Yaşar Qarayev yazır ki, "ədəbi tənqid romantizmi bir romantizm kimi tədqiq etmək əvəzinə, onu realizmin prinsipləri ilə təftiş etmişdir". Məsələn, romantizmi bir nəzəri cərəyan və bədii metod kimi öyrənərkən bu metodoloji sapıntı 30-cu illərdə nəzəri səhvlərə səbəb olurdu. Məsələn, Əli Nazim bir tərəfdən romantik şair və filosof Hüseyn Cavidi "böyük sənətkar" adlandırır digər tərəfdən isə yazırdı: "Cavid öz sinfinin şairi olmuş və öz sinfinin siyasi-pantürkist planlarının, onun milli-şovinist görüşlərinin ifadəçisi olaraq qalmışdır" (11, s. 104).

Belə misalları artırmaq olar. Təkcə bu nümunə göstərir ki 30-cu illər tənqidi vulqar – sosioloji mövqelərdə dayanır, bədii mahiyyəti qiymətləndirmək əvəzinə ədəbi fikri sosioloji şamurluğa sürükləyirdi.

Bədii metod mübahisələrində fəal iştirak edənlərə 30-cu illərə qədər aydın olmamışdı ki, "Sosialist realizmi bütün keyfiyyətləri ilə bərabər həm də yaradıcı fərdin zənginliyini nəzərdə tutur" (12).

Xalq yazıçısı, akademik Mirzə İbrahimovun bu mülahizəsi dövrün ədəbi prosesinin obyektiv surətdə əks etdirir. O zaman ictimai amil fərdi münasibətləri hədsiz üstələmişdi. Fərdi münasibətdən söhbət gedə bilməzdi. Bir rus yazıçısı öz soyadını atıb "Bezımeiski" yəni adsız imzasını qəbul etmişdir. Hər şey ümumi idi, hər şey hamıya məxsus idi hər şey kommunist partiyasına məxsus idi. Fərd öz adından danışa bilməzdi. Halbuki yaradıcılıq metodunun taleyi fərdin dünyagörüşündən asılı idi. Dövrün yaratdığı bu ziddiyyətdən yan keçmək də mümkün deyildi. 30-cu illərdə vulqar sosioloqlar, formalistlər, plexonovçular, RAPP-çılar və digər xırda-xuruş cərəyanlar arasında gedən mübarizədə 20-30-cu illər ədəbi-tarixi prosesdə həlli zəruri başlıca problemləri – klassik irs, proletar ədəbiyyatın və bədii yaradıcılıq metodu, habelə forma və üslub problemini ayırmaq müşkül məsələ idi. 1928-ci ildən – İ.V.Lunaçaski kommunist Akademiyasında etdiyi "Эстетика Чернишевского перед лицом современности" adlı məruzədə K.V.Plexanovun "menşevik fatalizmi"ni tənqid edildikdən sonra mübahisələr Plexanovçuluq istiqamətinə yönəldi. 1931-ci ildə "Литература и марксизм " jurnalının redaktoru tənqidçi V.Lebedev – Polyanski Plexanova münasibətin formula və metodunu şərh edərək yazırdı: "Ədəbiyyatşünaslıqda biz hamımız K.Plexanovun görüşlərindən çıxmışıq. La-

kin hələ heç kim rus marksizminin banisinin zəngin nəzəri irsindən, menşevizmlə yoluxmuş, onunla daxilən bağlı cəhətləri ayırmamışdır. Müasir marksist ədəbiyyatşünaslıq Plexanovu bütövlükdə, qalıqsız götürür: halbuki götürmək lazımdır; bütün Plexanov çıxılsın onun menşevizmi" (13).

Bu dövrdə bədii metodda dünyagörüşünün iştirakı dedikdə bütün sovet nəzəri–estetik fikrində dialektik materializm və marksizm – leninizm nəzərdə tutulurdu. Bu zaman SSRİ-yə daxil olan milli respublikalarda da vəziyyət eyni idi. Hələ 20-30-cu illərdə partiyanın ədəbiyyat sahəsində siyasətini həyata keçirən əsas təşkilat olan RAPP (və yerlərdə onu təşkilatlarının!) əsas estetik – metodoloji platformasını Plexanov estetikası müəyyən edirdi. "Marksizmi milli sosializmlə, xüsusən estetika sahəsində inqilabi – demokratik tənqidlə birləşdirə bilməsi Plexanovu Azərbaycanda da 20-ci illərdə paralel fəaliyyət göstərən ilk əsas ədəbi-nəzəri təmayüllə-demokratik və marksist ədəbiyyatşünaslıqla eyni zamanda doğmalaşdırmışdır" (14.403).

Azərbaycan tənqid və ədəbiyyatşünaslığını obyektiv səciyyələndirən bu cəhət yaradıcılıq metodunun da təşəkkülü və formalaşmasına stimul yaradırdı. Plexanovun "menşevik fatalizm" yaradıcılığında dünyagörüşü ilə bərabər, hissi, duyğunu da qiymətləndirməsi ilə bağlı idi. Böyük rus yazıçısı L.Tolstoydan gələn bu fikri 1927-ci ildə Azərbaycan tənqidçisi Əli Nazim də qəbul və demək olar ki, təkrar edirdi "elm daha ziyadə fikrə və bədii yaradıcılıq daha ziyadə duyğuya yaxın və bağlıdır" (15.73).

Cəmi dörd ildən sonra 1931-ci ildə yazdığı "Özünütənqid yolu ilə" adlı etiraf məqaləsində dövrün təsiri altında Əli Nazim bu doğru fikrin səhv olduğunu etiraf edəcək. 20-30-cu illər tənqidində hər şey tərsinə idi: etiraf olunan fikirlər düz, etiraflar səhv idi. Etiraflar siyasi təziqlər altinda edilirdi. Etiraf məqaləsi yazanlara "etiraf maskası altında" damğası vurulurdu. Metod mübahisələri belə mürəkkəb şəraitdə, "ədəbi döyüşlər" (Mehdi Hüseyn) epoxasında baş tuturdu. Bu mübahisələrdə sənətin ictimai mənşəyi, bədii obraz və üslub problemləri dövrün tələbinə uyğun revanşist bir tərzdə ön plana çıxırdı. Ədəbiyyatın imajlı (obrazlı) sənət sahəsi hesab edən gənc ədəbiyyatşünas Atababa Musaxanlı 20-ci illərin ilk ədəbiyyat nəzəriyyəsi olan "Ədəbiyyatdan iş kitabı"nda (1923) belə qənaətə gəlirdi ki, "Bu imajlar sistemi mənşəyi etibarilə istehsal prosesi və münasibətlər sisteminin qanunları ilə təyin edilir. Deməli, əsl nöqtə burasıdır. Burada materializm, monizm vardır" (15, s. 6).

V.K.Plexaniov nəzəriyyəsinin bilavasitə təsir altında yazılan bu fikir sırf vulqar – sosioloji xarakter daşıyırdı. Ümumiyyətlə, 20-ci illərin birinci yarısında istehsal prosesinə uyğun olaraq üslublar müəyyənləşir, bu zaman üslub metodla eyniləşdirilir, daha doğrusu qarışıq salınırdı.

Ötən əsrin 20-30-cu illəri tənqidində metod və metodologiya problemləri ilə məşğul olan folklorçu və ədəbiyyatşünas Hənəfi Zeynallı idi. O "Ədəbiyyatdan iş kitabı" üçün yazdığı "Sənət və ədəbiyyatın ictimai həyatla əlaqələri", "Ədəbiyyat tədqiqində metod". A.V.Baqrinin 30-cu ildə tərcümə olunmuş "Ədəbiyyatşünaslıq üçün vəsait" dərsliyinə yazdığı "Metodoloji müqəddimə" kimi yazılarında metod və onun nəzəriyyəsi haqqında dəyərli mülahizələr irəli sürülmüşdür. Hənəfi Zeynallının da sənət və onun yaradıcılıq metodu ilə bağlı görüşləri əsasən vulqar sosioloji xarakter daşıyırdı: "İctimai həyatın ən yüksək bir hadisəni təşkil edən psixoloji hadisələr belə nə qədər uzaq olsalar da, yenə də sarsılmaz iqtisadi özüldən asılı olurlar" (15, s. 6). O tarixi materializmə istinad edərək, belə nəticəyə gəlirdi ki, "Dünya ədəbiyyatına diqqət edirsə, ancaq iqtisadiyyatı ən yüksək mövqeyə çıxan məmləkətdə yüksək ədəbiyyat inkişaf edə bilər" (15.10).

Ədəbi prosesin mexaniki şəkildə istehsalat prosesi ilə, bədii üslubun ictimai quruluşun tendensiyaları ilə eyniləşdirilməsi bədii metod axtarışlarında lider olan, ən başlıcası kom-

munist partiyasının adından danışan RAPP-çıların – vulqar sosioloqların nəzəri konsepsiyasının əsasında dayanırdı. Artıq qeyd etdiyimiz kimi, 30-cu illərdə əks qütbdə ondan az qüvvətli olmayan formalistlər – V.Şklovski, V.Eyxenbaum, Y.Tınyanov, V.Tomaşevski, R.Yakobson kimi güclü poetika nəzəriyyəçiləri – ОПОЯЗ () təşkilatını qüvvətli nəzəriyyəçiləri dayanırdı. O dövrdə hakim olan "vulqar sosiolojim bərabərdir materializm, formalizm bərabərdir idealizm" düsturu məsələyə obyektiv yanaşmağa imkan vermirdi. Belə birtərəfli yanaşma bədii metod probleminin həllini də ləngidir, nəzəri – metodoloji sapıntılara yol verilirdi. Marksist tənqidin banilərindən V.Lunaçarski formalizmi "mövsüm məhsulu" hesab edir. Formalizm liderlərindən V.Eyxenbaum yazırdı ki, "Ədəbiyyat elmi hüdudlarında formalizm inqilabi hərəkatdır; çünki o həmin elmi köhnəlmiş ənənələrdən xilas edir; onu bütün anlayış və sxemlərə yenidən baxmağa məcbur edir" (16.11).

Bədiiliyi – bədii metodun tərkib hissələrindən birini nəzərə almadıqlarına görə marksistlərin metod konsepsiyası sxematik xarakter alırdı. Lakin qeyd edək ki, formalistlərin yeni forma anlayışı da materialist sənətin əsas bədiilik qanunu olan məzmun və forma vəhdətini nəzərə almırlar. Viktor Şklovski özünün "Nəsr nəzəriyyəsi haqqında" (1925) kitabında yazırdı: "Yeni forma yeni məzmunu əks etdirmək üçün deyil, artıq öz bədiiliyini itirmiş köhnə formanı dəyişmək üçündür" (17, s. 70).

Azərbaycan tənqidi bütünlüklə 20-30-cu illər ümum sovet (rus!) tənqidində gedən proseslərin təsiri altında idi. Onlar formalizm və sosializmin ədəbiyyatından nə istədiyini rus sovet nəzəri sxemləri ilə qəbul edirdilər: "Ədəbiyyat aləmində bu gün iki məktəb ayrılmışdır. Bunlardan birinciləri "formalizm" (şəkilçilik), ikincisi "sosiologizm" (məzmunçuluq) bu iki məktəb tərəfdarlarının arasındakı əsas fərq bunların ideologiyasında, həyatı görüşlərində ədəbiyyatı anlatmaları da araşdırılmalıdır. Birincilər idealist fəlsəfəsinə, ikincilər isə marksist məfkurəsinə yaxın olanlardır" (15, s. 28).

Beləliklə, bədii yaradıcılıq metodu problemi zəngin və ziddiyyətli fikir mübadiləəiri kontekstində formalaşırdı. Onun tədqiqi bütövlükdə 20-30-cu illərin əsas nəzəri meyl və tendensiyalarını obyektiv tarixilik prinsipinə əsaslanaraq nəzərdən keçirməyi tələb edir. Burada dövrün ədəbi-nəzəri, bədii-tarixi təkamülünü bütün faktları ilə izləməyi, analitik təhlilin predmetinə çevirməyi tələb edir. Bunsuz Sovet dövrü Azərbaycan ədəbiyyatının və ədəbi tənqidin obyektiv tarixin yazmaq mümkün olmaz.

**Məqalənin aktuallığı.** Azərbaycan ədəbi tənqidində klassik irsə, xüsusən də XX əsrin 20-30-cu illərində münasibət kifayət qədər ziddiyyətli olmuşdur. Bu, görkəmli tənqidçilərin fikirlərində də həmişə öz təsdiqini tapmışdır. Mövcud problemin həlli yaradıcılıq metodu məsələsinin obyektiv nəzəri-tarixi izahının zəruriliyini bir daha sübut edir. Məqalənin də bu mövzuya həsr olunduğunu nəzərə alaraq onu aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Məqalədə XX əsrin 20-30-cu illər ədəbi tənqidində yaradıcılıq metodu probleminə xarici ölkə alimlərinin nəzəriyyələrinə, elmi mülahizələrinə, tədqiqat nəticələrinə istinad olunmuşdur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar, tədqiqatçılar, eləcə də ədəbi tənqidçilər istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Nazim Ə. Mayakovskini öyrənəlim. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1979.

2. M.Hüseyn. İrəliyəmi geriyəmi (Şerimizdə sağ təhlükə əleyhinə) // Hücum, 1931, № 2.

3. İbrahimov M. İstedadlı tənqidçi və ədəbiyyatşünas. "Ədəbiyyat qəzeti", 1961. 11 mart

4. Şəmsizadə N. Seçilmiş əsərləri. Üç cilddə, II cild. Bakı: Elm, 2010.

5. Şəmsizadə N. Seçilmiş əsərləri. Üç cilddə, I cild. Bakı: Elm, 2008.

6. Zeynallı H., Abdulla Şaiq, A.Musaxanlı, H.Əfəndizadə. Ədəbiyyatdan iş kitabı. I qisim. Bakı: Azərnəşr, 1928.

7. Белински В.Г. Seçilmiş əsərləri. Bakı: Gənclik, 1979.

8. Назим А. Азербайджанская литература // Печать и революция, 1929, № 7.

9. Леонова В.П. Проблема художественного метода в критике. РАПП (20-30-е годы). Иркутск, 1970.

10. Русские писатели о литературном труде. Том-4. М,: Советский писатель, 1956.

11. Толстой А.Н. Полн. Собр. Соч. Т 13. М.: Гослитиздат, 1949.

12. Фадеев А. За художника диалектика материалиста. За тридцать лет. М.: Сов. пис., 1957.

13. Гуляев Н.А. Богданов А.И. Одкевич Л.Г. Теория литературы в. Связи с проблемами эстетики М.: Высшая школа, 1970.

14. Антоненко В.Г. Мировазрения. Идейная основа художественного творчества Киев: Высшая школа, 1979.

15. «Литература и марксизм» жур. 1931, № 5.

16. Ейхлибаум Б. Вокруг вопроса о формалистах // Печать и реалия, 1924, № 5

17. Иванов Б. Идейно – эстетические принципы советской литературы. М.: Худ. Литература, 1975.

**Г.Н. Сулейманова**

## Проблема метода творчества в литературной критике 20-х и 30-х веков XX века

## Резюме

Отношение к классической наследственности в литературной критике Азербайджана не всегда была неоднозначной. То же самое относится и к 20-30-м годам Прошлого века. Это всегда было установлено в умах выдающихся критиков. Решение существующей проблемы еще раз доказывает необходимость объективного теоретического и исторического объяснения творческого метода. Именно в этой статье проблема метода творчества в литературной критике того времени основывается на теориях, научных соображениях и результатах исследований зарубежных ученых.

**G.N. Suleymanova**

## The problem of creative method in literary criticism of the 20th and 30th centuries of the XX century

### Summary

In the literary criticism of Azerbaijan, classical heredity has not always been ambiguous. The same is true for the 20-30s of the last century. This has always been well-established in the minds of prominent critics. The solution of the existing problem once again proves the need for an objective theoretical and historical explanation of the creative method. It is in this article that the problem of the method of creativity in literary criticism of that time is based on the theories, scientific considerations, and research results of foreign scientists.

**Redaksiyaya daxil olub:** 13.11.2019